# Nohurqışlaq kəndi sosial-iqtisadi inkişaf yolundadır

(Əvvəli 9-cu səhifədə).

Çünki həmin istirahət zonasına gedən abad yol Nohurqışlaqdan keçir. Nohurqışlaq kəndindən onlarla gənc Yengicə kəndindəki sağlamlıq və turizm istirahət kompleksində yüksək əmək haqqı ilə daimi işlə təmin olunmuşdur.

Məruzədə qeyd olundu ki, kənddə 3223 nəfər əhali yaşayır. Onlar 790 təsərrüfatda birləşmişdir. Kənddə 480 nəfərin təhsil aldığı tam orta məktəb, tibb müəssisəsi, mədəniyyət evi, poçt və digər sosial obyektlər vardır. Kənd əhalisinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq və bağçılıqdır.

Kənd təsərrüfatının ümumilikdə sosial-iqtisadi göstəricilərin inkişafı üçün sahibkarlara, kəndli-fermer təsərrüfatlarına hər cür yardım göstərilir. Kənddə tikinti və abadlıq işlərinin həcmi və keyfiyyəti ildən-ilə artır. Kəndin mərkəzi yolunun, kəndarası yolların və yol kənarlarının abadlığı üçün lazım gələn bütün tədbirlər görülür. Hesabat dövründə kəndarası yolun asfaltlanması, işıq dirəklərinin yenilənməsi, yeni yaşayış məhəllələrinə elektrik və qaz xətti çəkilişi təmin olunmuşdur.

Əhalinin, xidmət obyektlərinin elektrik enerjisi və qaz təchizatının yaxşılaşdırılması, elektrik enerjisi və qazdan qənaətlə və səmərəli istifadə etmək, istifadə olunan qaz və elektrik enerjisi haqlarının vaxtında ödənilməsini təmin etmək üçün qaz və elektrik sayğaclarının quraşdırılması başa çatıb, Həmin sayğacların müdaxiləsiz işləməsi daim diqqət mərkəzindədir. Əhalinin işlətdiyi qaz və işıq haqqlarının sayğaclara uyğun, vaxtında poçt və bank şöbələrinə ödənilməsi diqqət mərkəzindədir.

Büdcədən maliyyələşən təşkilatlarda işçilərin əmək haqlarının, pensiyaların, müavinətlərin vaxtında ödənilməsi də nümayəndəliyin diqqət mərkəzindədir.





Nümayəndəliyin məşğul olduğu məsələlərdən biri də kənddəki təhsil, səhiyyə, mədəniyyət müəssisələrində işlərin normal təşkilinə kömək göstərməkdir. Nümayəndəliyin işçiləri daim bu müəssisələrdə olur, onların problemlərini öyrənir, bu problemlərin həllinə köməklik göstərirlər. Ərazidə gigiyena, epidemioloqiya tədbirlərinin vaxtaşırı həyata keçirilməsi də nümayəndəliyin diqqət mərkəzindədir.

İnzibati ərazi nümayəndəliyi yanında fəaliyyət göstərən komissiya ətraf mühitin mühafizəsinə, ictimai yerlərdə sanitariya və gigiyena qaydalarına ciddi riayət olunmasına daimi nəzarət edir.

Kənd əhalisinin demək olar ki, hamısı heyvandarlıqla məşğul olur. Buna görə də ərazidə baytarlıq təbabəti sahəsində nəzarətin gücləndirilməsi nümayəndəliyin diqqət mərkəzindədir.

Qəbələ rayon İcra hakimiyyəti başçısının Norhurqışlaq kəndi inzibati ərazisi üzrə nümayəndəliyinin əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də əsas diqqəti vətəndaşların qəbuluna, onların ərizə, şikayət və təkliflərinə vaxtında baxılmasına, sosial problemlərinin həll olunmasına yönəlmişdir. Ərizə və müraciətlərə baxılması işi günün tələblərinə uyğunlaşdırılmışdır. Nümayəndəliyə daxil olan yazılı və şifahi şikayətlərə baxılması işi daxil olan məktublar, onların təhlili, icrası təlimata uyğun aparılmışdır. Nümayəndəliyin ərazisində yerləşən təşkilatlarda ərizəçiyə, onun qaldırmış olduğu məsələnin həllinə göstərilən münasibət daim öyrənilir və haqlı müraciətlərin müsbət həllinə kömək göstərilir.

Nümayəndəliyin əsas vəzifələrindən biri də Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev başda olmaqla Respublika rəhbərliyinin, eləcə də Qəbələ Rayon İcra Hakimiyyəti başçısının sərəncam və göstərişlərindən irəli gələn tələbləri kənd əhalisinin nəzərinə çatdırmaq və dövlət və hökumət aktlarının icrası üçün lazım gələn vəzifələri vaxtında yerinə yetirməkdir ki, nümayəndəlik bu vəzifənin öhdəsindən gəlmək üçün lazım olan bütün tədbirləri həyata keçirir.

Nohurqışlaq kənd inzibati ərazi nümayəndəsi 2015-ci ildə nüumayəndəliyin qarşısında duran vəzifələr barədə də tədbir iştirakçılarına geniş məlumat vermişdir.

Hesabat yığıncağında Nohurqışlaq kənd tam orta məktəbin direktoru Yaqub Tahirov, tibb məntəqəsinin müdiri Xatirə Bəşirova, kənd sakinləri Nizami İbrahimov, Ağakərim Mirzəmmədov, kənd ağsaqqalı Firidun Mehdiyev, müəllim Fazil Atakişiyev və başqaları, çıxış edərək inzibati ərazi nümayəndəsinin 2014-cü ildəki fəaliyyəti barədə danışmış, onu qiymətləndirmiş və öz təkliflərini vermişlər.

Hesabat yığıncağında çıxış edən Qəbələ Rayon İcra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev Nohurqışlaq kənd inzibati ərazi nümayəndəliyi tərəfindən 2014-cü ildə kənddə aparılan işləri geniş təhlil etmiş, görülmüş işləri qiymətləndirmiş, nöqsanları nümayəndəlik işçilərinin nəzərinə çatdırmış, 2015-ci ildəki vəzifələrin dəqiq proqramını və bu proqramın həyata keçirilməsi yollarını izah etmişdir.

Hesabat yığıncağı qərar layihəsinin qəbulu ilə başa çatmışdır.

**Qüdrət SƏMƏDOV.**

# Gömrük sisteminin yaranması tarixindən

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz müasir Azərbaycan dövlətinin yaradılmasıdır. İndi müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi möhkəm təməllər üzərində inkişaf edir. Müstəqillik illərində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatların həyata keçirilməsi məhz ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin Azərbaycan tarixi qarşısındakı müstəsna xidmətləri sırasında respublikamızda gömrük sistemini inkişaf etdirmək, onun maddi-texniki bazasını möhkəmləndirmək, peşəkar kadrlarla gömrük sistemini gücləndirmək mühüm yer tutur. Bu dahi şəxsiyyətin sərəncamı ilə hər il ölkəmizin gömrük işçiləri öz peşə bayramını yanvarın 29-da yüksək səviyyədə qeyd edirlər.

Bu gün Azərbaycanda möhkəm təməllər üzərində qurulmuş gömrük sistemi dövlət xəzinəsini gəlirlərlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Şərəfli və məsuliyyətli bir vəzifəni icra edən gömrük sisteminin işçiləri həm ölkəyə qeyri-qanuni yolla müxtəlif malların gətirilməsinin, həm də ölkənin ən mühüm strateji sərvətlərinin aparılmasının qarşısını alırlar.

Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişlər. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur. Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının iki yaşayış məntəqəsində—Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı və burada xeyli sayda gömrük işçisi keşik çəkirdi.

Aprel işğalı digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi. SSRİ dövründə Azərbaycanda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi.

Lakin Azərbaycan xalqı ikinci dəfə öz müstəqilliyinə qovuşduqdan az sonra—1992-ci il yanvarın 29-da müstəqil gömrük sisteminin əsası qoyuldu.

**Aslan CƏLİLOV.**

# Ötən il ümumi daxili məhsul 2,8 faiz artmışdır

Ötən ilin sosial-iqtisadi inkişafının yekunlarını açıqlayan Dövlət Statistika Komitəsinin məlumatına görə 2014-cü ildə ümumi daxili məhsul istehsalının həcmi 2,8 faiz artmış və 59 milyard manata çatmışdır.

Əlavə dəyərin 41,5 faizi sənayenin, 12,5 faizi tikintinin, 5,3 faizi kənd təsərrüfatının, 4,5 faizi nəqliyyatın, 9,9 faizi ticarətin və pullu xidmətin, 1,8 faizi rabitənin,17 faizi digər sahələrin payına düşmüşdür. Sözü gedən dövrdə əhalinin hər nəfərinə düşən ÜDM istehsalının həcmi 6264,1 manat olmuşdur. Qeyri-neft sektorunda bu göstərici 7 faiz artmışdır.